*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 146-156* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.146*

# Məhəmməd Peyğəmbər şəxsiyyətinə Nizami Gəncəvi baxışı

**Leyla Kərimova**
AMEA Gəncə Bölməsi
E-mail: leynanu@gmail.com

*Mələk simalıydı, Allahtanıyan,*
*Bizə də Allahı o verdi nişan.*
*Bizləri cənnətə odur aparan,*
*Cəhənnəm odundan odur qurtaran.*
*Yolunun torpağı olan başımız,*
*Dəyməz başımızdan bir tükə yalnız.*
*Bizim halımıza qəlbdən yanaraq,*
*Gündüz Günəş oldu, gecələr çıraq.*
[11, s.20]

**Annotasiya.** Nizami Gəncəvinin ədəbi əsərləri misilsiz sənətkarlıqla qələmə alınmış bədii örnəklərlə bərabər, zəngin elmi, tarixi biliklərin bir yerə toplandığı qiymətli mənbələr hesab edilmişdir. Şair ancaq öz dövrünün hadisə və şəxsiyyətlərini deyil, eyni zamanda daha əvvəl baş vermiş hadisələri və tarixi şəxsiyyətləri də poemalarında əks etdirmişdir. Şair bununla həm onların ictimai-siyasi fəaliyyətinə öz münasibətini bildirmiş, həm də bu insanlarla bağlı daha əvvəldən xalq arasında yayılmış rəvayətləri qələmə almış, öz yaradıcılıq təxəyyülünün məhsulu olan əhvalatlardan istifadə etmişdir.
Nizami Gəncəvinin yaradıcılığında Peyğəmbər anlayışı və Hz. Məhəmməd Peyğəmbərə olan sevgisi, İslam peyğəmbərinin Allahdan sonra böyük sevgiylə tərənnüm edilməsi haqqında məlumat verməmişdən əvvəl, İslam dinində Peyğəmbərlik qavramı üzərində dayanmaq daha məqsədəuyğundur.
**Açar sözlər:** peyğəmbər, elçi, Allah sevgisi, poema, sənətkar

**Məqalə tarixçəsi:** göndərilib – 08.10.2025; qəbul edilib – 23.10.2025

# Prophet Muhammad's Persona Through the Lens of Nizami Ganjavi

**Leyla Karimova**
ANAS Ganja Department
E-mail: leynanu@gmail.com

**Abstract.** Nizami Ganjavi's literary works were considered a valuable source of rich scientific and historical knowledge along with artistic examples written with unprecedented skill. In his poems, the poet not only gave information about the events and personalities of his time, but also reflected information about events that happened earlier and historical figures of those times. The poet expressed his attitude to their socio-political activities, and also wrote down stories about these people that were circulating among the people and used stories that were the product of his creative imagination.

It is more appropriate to focus on the concept of prophethood in Islam before giving information about the concept of Prophet, his love for the Prophet Muhammad and the praising the Prophet of Islam after God with great love in Nizami Ganjavi's creativity.
**Keywords:** prophet, the servant of GOD, love of GOD, the poem, an artist

**Article history:** received – 08.10.2025; accepted − 23.10.2025

## Giriş / *Introduction*

Məlum olduğu kimi, Nübüvvət, Vəhy, Nəbi, Rəsul kimi qavramalar peyğəmbərlik qavramına aiddir. Nübüvvət – ərəb sözü olub , "bilinməyən, məlum olmayan bir şeyi və ya hadisəni xəbər vermək" deməkdir. "Kainatı yaratan Allahın, dini ve dünyevi konularda insanları bilgilendirib buyuruklarını haber vermek üzere seçtiyi bir insani elçilikle görevlendirmesidir. Yüce Allah elçilik yapmakla görevlendirdiği kişiye başta kendi varlığı, nitelikleri, canlı-cansız bütün yaratıkları barındıran kainatın yaratılışı, oluşumu, yaratılış amacı, işleyişi ve sonu, ahiret alemi, valıklar içinde insanın yeri, önemi ve görevleri, bilgi üretme yöntemleri, fert ve toplumun mutluluğu için dünya hayatında uyulması gereken belli başlı kurallar olmak üzere insanı ilgilendiren hemen her konuda vehy yoluyla bilgiler öğretmiş ve bunları diger insanlara tebliğ etmesini emr etmiştir" [7, s.162].

"Vəhy", bu söz də ərəb sözü olub, gizli demək, bildirmək və ya gizli şəkildə söylənilən söz mənasında işlənir. "Allah Tealanın çeşitli konulara ilişkin bilgileri söz ve ya məna şeklinde, doğrudan doğruya, yaxut melek vasıtasıyla peyğemberlere gizlice bildirmesidir" [7, s.162].

"Nəbi-Rəsul" kəlmələri də mənaca eyni sözlərdir. "Nəbi" ərəbcə xəbər verən, "Rəsul" isə xəbər gətirən, elçi mənasında işlənir. Əslində İslam dini qanun va qaydaları əsasında hər iki kəlmə bir yerdə eyni mənada işlənə bilər. Lakin bəzi islam alimləri bu iki söz arasında fərq olduğunu irəli sürmüşlər. Onların verdiyi məlumata əsasən, "rəsul" sözü yeni bir şəriətlə göndərilmiş peyğəmbər, "nəbi" isə əvvəlki peyğəmbərlərin gətirdiyi şəriəti təbliğ edən peyğəmbərlərə aid edilmişdir [7, s.162].

Qurani-Kərimdə isə rəsul sözü mələklər mənasında da işlənmişdir.

- بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلًا أُولِي أَجْنِحَةٍ مَثْنَىٰ وَثُلَاثَ وَرُبَاعَ ۚ يَزِيدُ فِي الْخَلْقِ مَا يَشَاءُ ۚ إِنَّ اللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

"Hamd, gökleri ve yeri yaratan, melekleri ikişer, üçer, dörder kanatlı elçiler kılan Allaha mahsustur. Yaratmada dilediği kadar arttırma yapar. Şübhesiz ki, Allah her şeye kadirdir [4, s.435].

Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri ( peyğəmbərləri) elçi edən Alllaha həmd olsun! ( Allah) məxluqatdan istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir" [4].

İslam dini qanunlarına görə, peyğəmbərlik Allah tərəfindən insanlara rəhmətini, sevgisini, hikmətini göstərmək üçün verilmiş bir mükafatdır. Uca Allah insanları həm bu dünyada, həm də axirətdə xoşbəxt görmək istədiyi üçün insana doğru yolu açıqlayan kitablar və bu müqəddəs kitabları insanlara öyrədən Peyğəmbərlər göndərmişdir.

İslami qanunlara görə də Peyğəmbərə iman gətirmək İslamın əsas şərtlərindən biri kimi hesab edilmişdir. Qurani-Kərimdə demək olar ki, bütün surələrdə bu mövzuya toxunulmuşdur.

Adi insanlardan fərqli olaraq, peyğəmbərlər Allah tərəfindən seçilirlər. Allah tərəfindən seçilmiş və Tanrının elçisi olan bu müqəddəs insanlara iman etmək, Allaha iman etməklə eyni sayılmışdır.

- مَا كَانَ اللَّهُ لِيَذَرَ الْمُؤْمِنِينَ عَلَىٰ مَا أَنْتُمْ عَلَيْهِ حَتَّىٰ يَمِيزَ الْخَبِيثَ مِنَ الطَّيِّبِ ۗ وَمَا كَانَ اللَّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ وَلَٰكِنَّ اللَّهَ يَجْتَبِي مِنْ رُسُلِهِ مَنْ يَشَاءُ ۖ فَآمِنُوا بِاللَّهِ وَرُسُلِهِ ۚ وَإِنْ تُؤْمِنُوا وَتَتَّقُوا فَلَكُمْ أَجْرٌ عَظِيمٌ

“Allah, murdarı temizden ayırıncaya kadar müminləri bulunduğunuz hal üzere bırakacak değildir. Allah size gaybı bildirecek de değildir. Fakat Allah, peygamberlerinden dilediğini seçer; onun için Allaha ve peygamberlerine iman edin. Eğer inanır ve korunsanız size de büyük bir ecir vardır” [3, s.74].

“Allah pisi yaxşıdan (münafiqi mömündən) ayırmaq üçün mömünləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildir. Allah sizə qeybi də bildirən deyildir. Lakin Allah öz peyğəmbərlərindən istədiyi şəxsi seçər (ona qeybdən bəzi şeylər bildirər). Buna görə də Allaha və Onun peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız sizi böyük bir mükafat gözləyir!” [3]

Allah peyğəmbərləri niyə seçdi, onlara niyə dəyər verdi. Çünki peyğəmbərlərin örnəkliyi sadəcə əbabəni geyinmək deyil, yediklərini yemək deyildir, Allahın əmrlərini layiqincə yerinə yetirmək deməkdir . Nizami Gəncəvi bu haqda demişdir:

*Allah insanın qəlbini imanla müalicə edər.*
*Xəstə qəlblərin imanı tövhiddir.*
*Ey məni müalicə edən, məni kimsəyə möhtac etmə.*
*Məni ancaq özünə möhtac et.* [16, s.35]

“Deməli, Peyğəmbərlik və Peyğəmbərlər Allahın birliyi inancının ayrılmaz tərkib hissəsidir və bu məsələnin yanlış yozumuna Allahın heç bir güzəşti yoxdur” [2, s.97].

## Əsas hissə / *Main Part*

Poemalarının əvvəlində Allaha olan sevgisini nət və minacat kimi bəhrlərdə verməsi Şeyx Nizaminin İslam dininə olan münasibəti və sevgisinin göstəricisidir! Ümumiyyətlə şair bütün “Xəmsə” boyu İslam peyğəmbərinə böyük hörmət və sevgiylə yanaşmışdır. Nizami Gəncəvi yaradıcılığında Məhəmməd peyğəmbər obrazı həm dini ideal, həm də mənəvi kamilliyin təcəssümü kimi təsvir olunmuşdur.

Poemaların Allahın vəsfi ilə başlayıb, Peyğəmbərin tərifi ilə davam etməsi, Allahdan sonra Məhəmməd Peyğəmbərdən “xilqətin nuru”, “peyğəmbərlərin xətmi”, “hidayət çırağı” kimi bəhs edilməsi şairin bu obraza böyük ümid və inamlarla bağlı olmasının göstəricisidir.

İslam Peyğəmbərinin obrazının Nizami Gəncəvinin yaradıcılığındakı yeri və rolu haqqında akademik Teymur Kərimli də öz fikrini bu cür ifadə etmişdir: “Orta əsrlərin başqa sənətkarları kimi, Nizami üçün də İslam dininin prinsipləri istər ictimai, istərsə də fərdi həyatda bir fəaliyyət proqramı idi. Xüsusən İslam peyğəmbərinin həyatı və fəaliyyəti Nizami üçün bir ideal, örnək, təqlid mənbəyi idi. Bu cəhət Nizami poemalarının giriş hissələrində öz bədii əksini tapmış, nət və meracnamələrdə çox yaxşı əks olunmuşdur. Bir sıra epizodlarda peyğəmbər həyatından konkret faktlar verilsə də, bütövlükdə Məhəmməd Peyğəmbər Nizami poemalarında konkret tarixi şəxsiyyət kimi deyil, bütün dövrlərin və xalqların ən ideal insanı kimi, ... mücərrəd tarixi şəxsiyyət kimi çıxış edir” [19, s.77]. Bəli, Nizami Gəncəvi üçün Məhəmməd Peyğəmbər tək dini rəhbər deyil, həm də ədalətli cəmiyyətin qurucusudur. Məhəmməd Peyğəmbərin qoyduğu şəriət qanunları insanın mənəvi kamilliyini təmin edən ilahi qanunlardır. İnsan mənəvi kamilliyə çatdığı zaman cəmiyyətdə ədalət də mövcud olar, ədalətli dövlət başçıları da.

Nizami Gəncəvi ilk poeması olan “Sirlər xəzinəsi”ndə İslam Peyğəmbərini digər poemalarına nisbətən daha çox vəsf etmişdir.

*Birinci nəqş edilmiş Əlif onu lövhədə,*
*Ağ pərdəli qapıda qismət oldu Əhmədə.*
*Qüdrət, səltənət verdi Əlif hey həlqəsinə,*
*Dal-dan gərdənlik aldı, Mim – dən kəmər özünə.*
*Əlif, dal ilə mimdə tapdı həyat qüvvəsi,*
*Bir dövlət dairəsi, bir kamal xəzinəsi.* [10, s.32]

Bildiyimiz kimi, peyğəmbərimizin ikinci adı Əhməd olmuşdur. Əhməd, şanlı, şərəfli mənasını vermir, Məhəmməd adı ilə eyni kökdəndir, lövhi-məhfuzda Allahın yazıldığı ilk hərfi düz xətdən ibarət olan "əlif" olması və Əhməd adının da "əlif"lə başlamasını Nizami Gəncəvi peyğəmbərin şərəfli və əqidəsində düz olmasına işarə kimi əks etdirmişdir. Təsadüfi deyildir ki, Peyğəmbərin bir adı da Əmin, yəni düzdanışan olmuşdur.

Şair yuxarıda səsləndirdiyimiz misralarda Əhməd adının mənalarını açıqlamışdır. Əhməd sözü əliflə başladığına görə, "əlif"i sözün qapısı mənasında, "hey" sözünü hakim dairə, "dal"ı boyunbağı, "mim"i isə kəmər kimi açıqlamışdır.

*Təhsili olmasa da o, çox yüksəkdir inan,*
*Əlif ilə Adəmdən, mim ilə Məsihadan.* [10, s.32]

"Sirlər xəzinəsi" poemasında İslam peyğəmbərinin vəsfinə altı bölüm (5 nət və merac) həsr edən Nizami Gəncəvi özünü onun gülü üçün oxuyan bülbül adlandırır. Məlumdur ki, gül həm də İslam dininin təşbihidir.

*Onun gülü üstündə bülbülləşib Nizami,*
*Feyzindən açıbdır təbii qızılgül kimi.* [10, s.40]

Bildiyimiz kimi, Məhəmməd Peyğəmbərin oxuma və yazması olmamışdır. Ona görə Məhəmməd Peyğəmbəri həm də ümmi (oxuma-yazma bilməyən) adlandırıblar. Şair, "Ümmi" sözünü "Adəm" və "Məsiha" kəlmələrindəki əlif və mim hərflərini bir yerdə götürmüşdür. Nizami Gəncəvi poemalarında bütün peyğəmbərlərin adını çəksə də, onlar haqqında məlumatları əks etdirsə də, Məhəmməd peyğəmbəri bütün peyğəmbərlərdən, hətta Adəm və İsadan da üstün tutmuşdur.

*Məhəmməddir aləmin ən işıqlı nöqtəsi,*
*Bütün deyilmişlərə nüqtə qoyub nüktəsi.* [10, s.33]

Bu misrada işlənmiş "nüqtə" sözünün mənası incə məna, düşüncə və fikir mənasına gəlir. Şairin bu beytdə Məhəmməd Peyğəmbəri dünya üzüyünün qaşı adlandırması "nöqtə" kəlməsinin Məhəmməd peyğəmbərin məfkurəsinin yekunu kimi ortaya çıxmasına və bütün peyğəmbərlər haqqında deyilən fikirlərə nöqtə qoyulmasına işarədir. Elə buna görə də İslam Peyğəmbəri "Xatəmül-ənbiya" – peyğəmbərlərin sonuncusu adlandırılmışdır.

Nizami Gəncəvi Məhəmməd Peyğəmbərin əxlaqı və ədəbi ilə cahanda ən uca məqamda olmasına baxmayaraq, lovğalıq və təkəbbür kimi xüsusiyyətlərdən uzaq olduğuna işarə etmişdir.

*Cahana baş əyməyən kamil kişi olsa da,*
*Öyünməkdən, kibrdən uzaq gəzdi dünyada.* [10, s.33]

Hədislərdən də məlum olduğu kimi, Məhəmməd peyğəmbər şəxsi həyatında ciddi bir insan imiş, nadir hallarda gülərmiş. Şair Nizami Gəncəvi öz məfkurəsinə uyğun olaraq Peyğəmbərin bu

xüsusiyyətinə işarə edərək, belə bir məna vermişdir ki, peyğəmbər əfəndimiz ona görə çox gülmürdü ki, içi dürr olan sədəf onun şəkər dodaqlarını görüb xəcalət çəkməsin.

*Şəkər dodaqlarını daim açsaydı əgər,*
*Ondan utanmazdımı sədəf bağrında gövhər?* [10, s.40]

Mütəfəkkir şair poemalarında yeri gəldikcə, əvvəlki peyğəmbərlərin Adəmin, Nuhun, İbrahimin, Davudun, Süleymanın, Xızırın, Musanın, İsanın adlarını çəkmiş, çox az da olsa, onlardan bəhs etmiş, hətta bəzilərinin öz ümməti üçün səhv etdiklərinə görə, Allahdan cəza istədiklərini əks etdirmişdir. Lakin şair İslam peyğəmbərinin bütün səhv və nöqsanlardan uzaq olduğunu və Allahdan ümməti üçün yalnız düz yola hidayət etməsini xahiş etdiyini göstərmişdir.

*Həm Adəmsən, həm də Nuh, yox,onlardan ucasan,*
*Onların vurduqları düyünləri açansan.*
*Adəm bir buğda daddı, ağır günaha batdı,*
*Tövbəsi – bir gülşəkər, tövbə dadına çatdı.* [10, s.45]

Məhəmməd Əmin Rəsulzadə şairin Məhəmməd Peyğəmbər haqqındakı görüşlərini bu cür izah etmişdir: “ Nizamiyə görə, hökmü qiyamətə qədər sürəcək ən böyük bilgi və hidayət sahibi olan rəis – Məhəmməddir. Merac bu ruhi münasibətin bir rəmzidir. Sufilikdəki allahlıqla ruhi təmas əqidəsinin şairanə bir rəmzinin gördüyü ehtimal bulunan merac mənkiləsinə Nizami həzrəti Məhəmməd Peyğəmbəri mədh edərkən, xüsusi bir etina ilə daim övdət ( dönməkdədir) deməkdir” [9, s.145].

Nizami Gəncəvinin Məhəmməd Peyğəmbərə olan sevgisini göstərən ən mühüm fakt peyğəmbərimizin Merac hadisəsini həm “Sirlər xəzinəsi” poemasında, həm də “Yeddi gözəl” poemasının girişində geniş şəkildə təsvir etməsidir. Şairin bu təsvirindən təsirlənərək Şah I Təhmasibin sifarişi ilə 1539-1543-cü illərdə Təbriz miniatür məktəbinin sənətkarları tərəfindən “Xəmsə” əlyazmasına çəkilmiş rəsm əsərində Məhəmməd Peyğəmbərin meracı gözəl bir şəkildə təsvir olunmuşdur. Hal-hazırda bu miniatür Britaniya Milli Kitabxanasında saxlanılır. Miniatürdə peyğəmbərin meracı bu cür təsvir edilmişdir: “Ulduzlu bir gecədə peyğəmbər dünya tamahı ilə vidalaşıb çəhrayı rəngli, insan başlı, qanadlı əfsanəvi atın – Buraqın belində göyün yeddinci qatına qalxır” [20].

*Alınca tanrının əmrindən soraq,*
*Olmadı halqalı kəməndə yağı;*
*Tapılmaz belə bir zər boyunbağı.*
*Minib də Büraqa ildırımvarı,*
*O cumdu göylərə əldə tatarı.* [14, s.26]

Şair Peyğəmbərin Məkkədə doğulmasının, Mədinədə dəfn edilməsinin həmin şəhərləri daha da şərafətləndirdiyini qeyd etmiş, Məhəmməd Peyğəmbəri dünyaya göz açdığı Məkkə şəhərində, sonralar hicrət etdiyi Mədinə şəhərində işıq saçan günəşə, aya və ətir saçan gülə bənzətmişdir.

*Ey Mədinə köynəkli, Məkkə pərdəli gözəl,*
*Günəş nə vaxta kimi kölgədə qalacaq, gəl.*
*Aysan əgər, nurundan bir, şölə göndər bizə,*
*Gülsən əgər, bağından ətrin gəlsin təptəzə.* [10, s.44]

Şair, Allah Rəsulunu – son Elçini, aləmlərə rəhmət olaraq, gözəl əxlaqı tamamlamaq üçün göndərilmiş Hz. Məhəmmədi sevə-sevə tanıtmış, hər məsnəvisinin əvvəlində, tövhid bölməsindən sonra Ona yer vermiş, Onun gözəl xüsusiyyətlərini önə çıxarmış, Onu tanıtmaq üçün gözəl məcazlar seçmiş, Peyğəmbərə olan sevgisini göstərmək üçün, hətta oğlunun adını da Məhəmməd qoymuşdur.

Nizami Gəncəvi Peyğəmbərə o qədər bağlıdır ki, deyir:

*Allahım, dərdli başıma dərman et.*
*Başımın dərdini Həzrəti Mustafanın ayağının tozunun başmağı et.* [16, s.178]

Nizami Gəncəvinin torpağı Allahın toxumlarının səpildiyi yerdir. Nizami Gəncəvinin mayasında tövhid var. Diqqət etsək, şair Peyğəmbəri tərənnüm edərkən, özünü Məhəmməd Peyğəmbərin torpağı adlandırır, peyğəmbərin rolunu göstərməyə çalışır. İnsan öz mayasında, fitrətində Allahın özəlliyini yaratmışdır. Amma o Allahın tövhid deməsi ki, o torpağı yaratmağa, cücərtməyə ehtiyac var, elə toxumlar var ki, onu yemək olur, məsələn badamın toxumu. Amma Nizami Gəncəviyə görə, ən gözəli bu toxumu torpağa əkib çoxaltmaqdır, becərməkdir.

*Nicat sübhü ver mənə, ey dağım, ey dayağım!*
*Sən dirilik suyumsan, mən də sənin torpağın.*
*Canımın behiştidir daşın, torpağın sənin,*
*Cahanımdır, canımdır türbən, gül bağın sənin.*
*Rüzgar olum, dolanım o türbənin başına,*
*Toza dönüm, qarışım torpağına, daşına.* [10, s.49]

Bəzən Allahın mayamıza, fitrətimizə qoyduğu tövhid dənəsinin göyərməsi üçün Allah rəsulunun göndərilməsinə ehtiyac var. Gələcək bizə o toxumu necə əkməyi, necə suvarmağı, necə göyərtməyi, necə dua etməyi, necə qəlbimizi açmağı bizə öyrədəcək. Hər nemət bir şükürdür. Hər bir insan Allahın verdiyi nemətə şükür etməlidir. Şükür etməyən insan insan olarmı?

Ağlın neməti düşünməkdir, əgər düşünə bilirsənsə, ağıldan doğru istifadə edirsənsə, Allahın verdiyi nemətə şükür etməlisən.

Qəlbin neməti imandır. Allahın verdiyi qəlbə görə Allaha təşəkkür etmək istəyən iman etməlidir. İman etməyən nankordur. Vicdanın şükrü mərhəmətdir. Əgər Allahın verdiyi vicdana görə Allaha şükür etmək istəyirsənsə, Nizami deyir ki, ey insan mərhəmətli olmalısan [17, s.68].

Nizami Gəncəvi əsərlərində qeyd edir ki, Allah Qurani-Kərimdə bütün surələrin başında (Tövbə surəsindən başqa) ona görə “bismilləhir rahmənir-rahim” qoyub ki, insan rəhimli olsun [18, s.150].

Nizami Gəncəvi Peyğəmbərimizi o qədər sevmiş, ona o qədər könüldən bağlanmışdır ki, yaganə övladına Məhəmməd ismini qoymuş, oğluna: “övlad, nemətinin şükrü gözəl tərbiyədir”, – demişdir. Şair oğluna müraciət edərək buyurmuşdur:

*“Ey oğlum, axirətdə kim olacaqsan?”* [17, s.112]

Dünyanın ən gözəl sualı budur.

Nizami Gəncəvi oğluna Məhəmməd adının qoymasını belə açıqlamışdır:

“Ad insanı tərbiyə edir. Oğlum, bu ad əbədi bir bağın gülünün adıdır” [16, s.89]. Şair Hz. Məhəmməd Peyğəmbəri oğluna belə tanıtmışdır.

Şair Məhəmməd Peyğəmbəri təsvir edərkən, gül sözünü seçir. Bildiyimiz kimi, qızılgül güllərin şahıdır. Sənə elə bir ad qoymuşam ki, adların şahıdır.

Məhəmməd "bəyənilmiş", "sevilmiş", "Allahın bəyəndiyi" ad mənasındadır. Qızılgülün görünüşü gözəldir, ətri gözəldir. Qızılgülün içərisində şəfa olan dərmanlar var. "Sənə elə bir ad qoymuşam ki, Məhammə2din ətri sənin üzərinə gedəcəkdir. Oğlum, sən mənim oğlumsan, amma üstündə Allahın adı olsun. Məhəmmədin adı şərəfli addır. Amma gözəl adla iş bitmir, o adın haqqını verməlisən" [18, s.139].

Oğluna öyüd vermək üçün Nizami Gəncəvi xüsusi anları seçirdi və bunun da açıqlamasını verirdi. O, oğluna öyüd verəndə oğlunun yadına salır: "Bir gün atan Nizami bu dünyada olmayacaq, öyüdlərimi yaxşı dinlə. Övladın valideyn üzərində haqqı var. Bu haqq da ona gözəl tərbiyə verməkdir. Oğlum Məhəmməd sənə elə bir ad qoymuşam ki, o son elçinin adıdır. Aləmlərə rəhmət olaraq göndərilmişdir. Ən gözəl örnəkdir, uca əxlaq sahibidir, sən də onu özünə örnək seç" [17, s.67].

Şair "Yeddi gözəl" poemasının əvvəlində Məhəmməd peyğəmbərin tərifi üçün "Peyğəmbərin mədhi" və "Peyğəmbərin meracı" adlı bölümlərdə Məhəmməd peyğəmbərin digər peyğəmbərlərdən üstünlüyünü aşağıdakı misralarla bildirmişdir.

*Əhmədi-Mürsəldən başqası məgər*
*Varmıdır, tanrıya ola peyğəmbər.*
*Nəbilərdən üstün qılıncı,tacı,*
*Şəriət-qılıncı, tac da meracı.* [14, s.22-23]

İslam etiqadına görə, Quranda adları keçən 124 min peyğəmbər olmuşdur. Bu peyğəmbərlər Allahdan vəhyalma xüsusiyyətlərinə görə bir-birilərindən seçilmişdirlər. Allah tərəfindən müqəddəs kitab verilənlərə Rəsul, sadəcə vəhy gələnlərə isə nəbi deyilmişdir. Rəsul Allahın elçisi, Nəbi isə peyğəmbər deməkdir. Məhəmməd Peyğəmbər də Allah tərəfindən müqəddəs kitabla mükafatlandırılan Allahın rəsulu sayılmışdır. "Yeddi gözəl" poemasından misal gətirdiyimiz, yuxarıdakı beytlərdə bu xüsusiyyətə toxunulmuşdur.

Məhəmməd Peyğəmbərə merac möcüzəsinin verilməsinə Nizami Gəncəvi İslam Peyğəmbərinin digər peyğəmbərlərdən şəriətinin üstün olmasıyla açıqlıq gətirmişdir. "Peyğəmbərin meracı" bölümündə Məhəmməd Peyğəmbərin meracını bu cür təsvir etmişdir:

*Ucalt öz başını, bu himmətinlə,*
*Hər iki aləmi bəxtiyar eylə.*
*Yolunu təmizlə, qoyma toz ola,*
*Tanrı dərgahına yönəl, düş yola.* [14, s.26]

Merac hadisəsi, Nizami Gəncəvinin bütün poemalarının əvvəlində, "Xosrov və Şirin" poemasının isə sonunda təsvir edilmişdir. Bu poemanın sonunda verilən meracnaməni digər poemaların əvvəlində verilmiş meracnamələrin nəticəsi kimi düşünmək olar. Həm də poemanın sonunda verilmiş bu meracnamədə Tanrı ilə Məhəmməd Peyğəmbər arasında dialoqun verildiyini də görmək olar [19, s.87].

*Dünya Allahını görərkən gözü,*
*Allah kəlamını dinlədi özü.*
*Xitab olundu: "Ey dərgah istəyi,*
*Söylə, ürəyinin nədir diləyi!"*
*Məhəmməd Allahdan istədi rəhmət.*
*Ümmət günahıyçın dua eylədi,*
*Allah: "İstəyini bəxş etdim!"* – dedi. [12, s.352]

Əgər meracnamələrdə Məhəmməd Peyğəmbərin göyün yeddinci qatına qalxaraq, Allahla olan söhbəti, meracın məqsədinin nə olduğu açıqlanırsa, "Xəmsə"də olan nətlərdə isə Məhəmməd peyğəmbərin başına gələn tarixi hadisələr əks olunmuşdur.

İslam tarixinin mərkəzini və İslam tarixinin qızıl çağını təşkil edən dövr dinin zühur etməsindən Məhəmməd Peyğəmbərin (s) ölümünə qədər davam edən və islami qaynaqlarda "Əsri-səadət" (səadət dövrü) olaraq adlandırılan dövrdür. "Əsri-Səadət" iki ana hissədə araşdırılır. Bunlar Məkkə dövrü və Mədinə dövrüdür. Məkkə dövrü daha çox dinin meydana gəlməsi, ilk müsəlman icması, əxlaqi və dini dəyərlərin müsəlman icması tərəfindən mənimsənilməsi, mövcud olan dini inanc ilə islamın qarşıdurması və müqavimətlərini ehiva edir. Bu dövr hicrətlə birlikdə sona çatır. Mədinə dövrü isə İslam dövlətinin və cəmiyyətinin quruluşu ilə daha siyasi və ictimai bir dövr olub, müxtəlif döyüşlərə həm siyasi nüfuz, həm də ictimai rifah mənasında yüksəliş ifadə edən bir zaman mövhümüdür. Bu dövrdə bütün Ərəbistan Yarımadası müsəlmanların idarəsində olmuşdur [5, s.81].

Məlumdur ki, Məhəmməd Peyğəmbər tarixi şəxsiyyət olmuşdur. İslam tarixinin yarandığı vaxtdan Məhəmməd Peyğəmbərin vəfat etdiyi vaxta qədər olan dövrə nəzər yetirdiyimizdə peyğəmbərimizin tarixi bir şəxsiyyət kimi İslam tarixində önəmli rol oynadığını görərik.

Mədinə şəhərində on il islamı təbliğ edən Məhəmməd Peyğəmbər çox qüvvətli bir dövlətin təməlini qoymuş, pərakəndə olan ərəb qəbilələrini bir araya gətirmiş və Ərəbistan yarımadasında güclü, vahid cəmiyyət yaratmışdır. Bundan əlavə o, qonşu dövlət başçılarına məktublar göndərmiş və onları İslama dəvət etmişdir. Həmçinin Peyğəmbər müxtəlif döyüşlərdə iştirak etmiş və əsgəri bir həyat yaşayaraq, bacarıqlı bir sərkərdə kimi Allah yolunda cihad da etmişdir.

Bu hadisələrdən biri Nizami Gəncəvinin də nətlərdə bəhs etdiyi hadisə – döyüşlərin birində Məhəmməd Peyğəmbərin dişinin daşla sındırılması və dodağının parçalanması hadisəsidir. Bu əhvalat tarixi hadisə olduğu üçün, şair bu məqamı təsvir edərkən, hadisəyə poetik keyfiyyətlərin bütün xüsusiyyətlərini əlavə edərək əks etdirmişdir. Poemada bəhs edilmiş hadisə tarixdən də məlum olduğu kimi, Uhud döyüşündə baş vermişdir. Mənbələrin verdiyi məlumatlara görə peyğəmbərin şəxsən iştirak etdiyi döyüşlərin sayı 28 olmuşdur. Lakin təşkil edib, iştirak etmədiyi döyüşlərin sayı isə 47 olmuşdur [6, s.245].

Həzrəti Məhəmməd Peyğəmbər özü şəxsən Allahın əmr etdiyi bu yolda döyüşlərə, diplomatik danışıqlara başçılıq etmişdir. Aqabə görüşləri buna misal olaraq verilə bilər.

Uhud döyüşü 23 mart 625-ci ildə məkkəlilərlə mədinəlilər arasında baş vermişdir. Məhəmməd Peyğəmbər Məkkədə anadan olsa da, ona Allahdan vəhy gəldikdən sonra Məkkə müşrikləri Peyğəmbərə və onun sahabələrinə zülmlər etmiş, bunun müqabilində Məhəmməd Peyğəmbər və onun dini ideologiyasının tərəfdaşları Məkkədən Mədinəyə intiqrar etmişlər. Məkkədə müşrik dəstəsinə Əbu Sufyan başçılıq edirdi. Uhud döyüşünün baş verməsinin səbəbi müşriklərin Bədr döyüşündə məğlubiyyətinin qisasını almaq, verdikləri itkiləri bərpa etmək, və müsəlmanların qələbə əhval-ruhiyyəsini məhv etməkdən ibarət idi. Bu döyüşdə Məhəmməd Peyğəmbərin əmisi Həmzə öldürülmüşdür [21].

Tarixi qaynaqlarda döyüşün baş verməsi və Peyğəmbərin dişinin sındırılması hadisəsi belə təsvir edilmişdir:

"Müsəlmanlar həm döyüşür, həm də Peyğəmbəri axtarırdılar. Onu ilk tapan Kəb ibn Malik oldu. Peyğəmbərin başı örtülü olduğu üçün ancaq gözləri görünürdü. Kəb Peyğəmbəri görən kimi, ey müsəlmanlar, Rəsulullah buradadır, – deyə bağırdı. Bunu eşidən müsəlmanlar o tərəfə qaçaraq Peyğəmbəri dövrəyə aldılar. Ancaq müşriklər də Peyğəmbərin yerini öyrənmiş, bütün hücumlarını o tərəfə yönəltmişdilər. Müşriklərdən hər biri əlini Peyğəmbərin qanına bulamağı öyünüləcək bir şey sayaraq, var qüvvələri ilə ona hücum edirdilər. Həzrəti Əli yanındakı yoldaşları ilə birlikdə sinələrini sipər edərək Peyğəmbəri qoruyurdu. Səd ibn Əbu Vəqqasın qardaşı, müşriklərin içərisində olan Ütbə ibn Əbu Vəqqas atdığı bir daşla Peyğəmbərin dodağını yarmışdı" [1, s.358].

Nizami Gəncəvi bu tarixi hadisəni elə dəqiq və real, yaxın və doğma adamı kimi təsvir etmişdir ki, sanki bu döyüşü öz gözləri ilə görmüş və yaxından iştirak etmişdir.

*Məhəmmədin dürrünü sındırmasaydı əgər,*
*Öyünə bilərdimi o daş məgər bu qədər?!*
*Dar ağız qutusuna daş dəydi, düşdü gövhər,*
*Gövhər daşdan doğulur, əbəsmi söyləyiblər?!* [10, s.40]

"Məhəmmədin sınmış dişini çıxartması – onun dünyəvi arzuları dişini çəkməsi (dünyadan vaz keçməsi) ilə müqayisə edilmişdir" [19, s.89].

Bu beytlərə nəzər saldığımız zaman görürük ki, mütəfəkkir şair Nizami Gəncəvi Məhəmməd Peyğəmbəri hər kəsə nümunə olacaq bir şəxs kimi təqdim etmiş, xasiyyətinin yumşaq və mülayim olmasını, hətta ona zülm edənləri belə bağışlamasını, mərhəmətini yüksək səviyyədə təsvir etmişdir. Peyğəmbər ona atılan daşı belə incitməmişdir. Şair bu hadisəyə münasibətini bu cür bildirmişdir:

*Bir daşın da könlünü qırmayan həssas kişi!*
*Daşlar necə qıydı bəs, sındırdı inci dişi?* [10, s.40]

Akademik Teymur Kərimli Nizami Gəncəvinin poemalarında Məhəmməd Peyğəmbərlə bərabər, raşidi xəlifələr dövrünün tarixi şəxsiyyətlərini də təsvir etməkdə məqsədinin tarixi hadisələri nəzmə çəkmək deyil, islamın keçmiş qızıl dövrünü ideallaşdırmaq və bununla da öz müasirlərinə öyüd-nəsihət verməkdən ibarət olduğunu bildirmişdir [19, s.89].

Nizami Gəncəvi öz dövrünün eybəcərliklərini ifşa etmək üçün Məhəmməd Peyğəmbəri və onun tərəfdarlarını öz zəmanəsinə gətirərək İslamın keçmiş əzəmətini bərpa etməyə çağırmışdır:

*Başçı sənsən, bəs neçin başsız qalıbdı karvan?*
*Mərkəz sənsən, bəs neçin bayraq qalxır kənardan?*
*Sən şeytanın üstünə Öməri göndər, ya da,*
*Əmr et, Əli vuruşsun bu vuruş meydanında.* [10, s.45]

Şair poemalarında peyğəmbərin həyatına aid tarixi faktlardan da bəhrələnmişdir. Misal üçün, Nizami Gəncəvi "Leyli və Məcnun" poemasının əvvəlində – "Sonuncu peyğəmbərin tərifi" adlı bölümdə dörd Raşidi xəlifəsinin adını çəkmiş, onların təxəllüsünə uyğun qısa açıqlama vermişdir.

Bu evə yeddi səqf yaratdın yenə,
Tapşırdın onu da dörd xəlifənə (dörd xəlifə Əbubəkr, Ömər, Osman və Əli)
Siddiq (birinci islam xəlifəsi Əbubəkrin ləqəbidir) sədaqətə olmuşdur rəhbər
Faruqi (ikinci islam xəlifəsidir ki, haqqı batildən fərqləndirmişdir) fərqdən uzaq bildilər.
O, Allahdan qorxan həyalı qoca (burada üçüncü xəlifə Osman nəzərdə tutulmuşdur)
Tanrının şiriylə (Allahın şiri isə dördüncü xəlifə olan Əli nəzərdə tutulmuşdur) həmdərs olunca

*Dördü də bir yolun sarbanı oldu,*
*Dördü də bir ləkin reyhanı oldu.*
*Bu dörd xəlifəylə güldü məmləkət,*
*Hər ev dörd divarla qurular, əlbət.* [13, s.35]

Nizami Gəncəvi tarixi şəxsiyyətlər olmuş hökmdarların, övliyaların, peyğəmbərlərin xüsusilə, Məhəmməd Peyğəmbərin obrazını yaxşı insanların sifətləri ilə bəzəmiş, onları ideal insan kimi qələmə almışdır. Şair tarixi şəxsiyyətləri əsərlərində təsvir edərkən, həm onları öz dövrünün insanlarının obrazları şəklində, həm də elə tarixi şəxsiyyətin özü kimi qələmə almışdır. Həmçinin Nizami Gəncəvinin əsərlərində adıkeçən tarixi şəxsiyyətlər həm də ideal insan obrazlarıdır.

## Nəticə / *Conclusion*

Məhəmməd Peyğəmbər peyğəmbərlik vəzifəsini tamamlamaq üçün 632-ci ildə ətrafındakı müsəlmanlar ilə həcc ziyarətində olmuş və bu ibadətin sonunda o, İslam dünyası üçün Qurani-Kərimdən sonra axirətə qədər insanlığa, bəşəriyyətə bələdçilik edəcək dəyərli vida xütbəsini demiş və ondan cəmi bir neçə ay sonra da vəfat etmişdir. Lakin bu Məhəmməd Peyğəmbərin peyğəmbərlik missiyasında vizual cismani son olsa da, məna aləmində nə dünya, nə də axirət həyatı üçün Son deyildir.

## Ədəbiyyat / *References*


1. Əli Himmət Bərki, Osman Kəskioğlu. Xatəmül-ənbiya. Həzrəti Məhəmməd və həyatı. – Ankara, 1993.
2. Əhmədli Əlişir. İlyas Yusif oğlu Nizami Gəncəvi. Siracəddin Hacı “Həzrət Nizami yaradıcılığında Peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd” kitabından. – Gəncə, 2013.
3. Əli-İmran surəsi, 179-cu ayə. Kurani-Kerim ve Türkçe Meali. Elmalı`lı M.Hamdi Yazır, Temel neşriyyat, İstanbul, s.74. Qurani-Kərim. Ziya Bünyadov və Vasim Məmmədəliyevindir. https://quran.az/1?t=2.
4. Fatır surəsi, 1-ci ayə. Kurani-Kerim ve Türkçe Meali. Elmalı`lı M.Hamdi Yazır, Temel neşriyyat, İstanbul. Qurani-Kərim. Ziya Bünyadov və Vasim Məmmədəliyevindir. https://quran.az/1?t=2.
5. Həbib Nəccar Astaralı. Tarixlərin açarı (Məhəmməd Peyğəmbərin həyat yolu və mübarizəsi). – Bakı: Gənclik, 1991.
6. Hakim Həsqani. Şəvahidut-tənzil. – Beyrut, 1391\1974.
7. İslamda İnanc əsasları. Prof.Dr. Bekir Topaloğlu, Prof.Dr. Yusuf Şefki Yavuz, Prof.Dr. İlyas Çelebi. – İstanbul, 2002.
8. İslam Tarihi. Başlangıcından Emevilerin Sonuna Kadar. Ali Aktan. – Bilkent-Çankaya/Ankara, 2022.
9. Məmməd Əmin Rəsulzadə. Azərbaycan şairi Nizami. – Bakı, 1951.
10. Nizami Gəncəvi. “Sirlər Xəzinəsi”. – Bakı: Lider, 2004.
11. Nizami Gəncəvi. “İsgəndərnamə”. “İqbalnamə”. Tərcümə edən: Mikayıl Rzaquluzadə. – Bakı: Lider, 2004.
12. Nizami Gəncəvi. “Xosrov və Şirin”. Tərcümə edən Rəsul Rza Ulutürk. – Bakı, 2004.
13. Nizami Gəncəvi. “Leyli və Məcnun”. Tərcümə edən Səməd Vurğun. – Bakı: Yazıçı, 1983.
14. Nizami Gəncəvi. “Yeddi Gözəl”. Tərcümə edən Məmməd Rahim. – Bakı: Yazıçı, 1983.
15. Sabri Hizmetli. İslam tarihi. Başlangıcdan İlk Dört Halife Devri Sonuna Kadar. – Ankara, 1991.
16. Siracəddin Hacı. Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbər anlayışı və Həzrəti Məhəmməd (s.a.s). I kitab. – Bakı: Nafta-Press, 2006.
17. Siracəddin Hacı. Həzrəti Nizami Gəncəvinin yaradıcılığında peyğəmbər anlayışı və Həzrəti Məhəmməd (s.a.s). II kitab. – Bakı: Nafta-Press, 2008.
18. Siracəddin Hacı. Həzrəti Nizami Gəncəvinin yaradıcılığında peyğəmbər anlayışı və Həzrəti Məhəmməd (s.a.s). III kitab. – Bakı: Nafta-Press, 2009.
19. Teymur Kərimli. Nizami və Tarix. – Bakı: Elm.
20. wikimedia.az-az.nina.az/Məhəmməd_peyğəmbərin_meracı_( miniatür-XVI_əsr).html).
21. az.wikipedia.org/wiki/Uhud_doyuşu)

## Восприятие личности пророка Мухаммеда в наследим Низами Гянджеви

**Лейла Каримова**
Гянджинское отделение НАНА
E-mail: leynanu@gmail.com

**Резюме.** Литературные произведения Низами Гянджеви считались ценным источником богатых научных и исторических знаний наряду с художественными образцами, написанными с беспрецедентным мастерством. В своих поэмах поэт давал не только информацию о событиях и личностях своего времени, но и отразил информацию о событиях произошедших ранее и исторических личностях тех времен. Поэт выражал свое отношение к их общественно-политической деятельности, а также записывал распространявшиеся в народе рассказы об этих людях и использовал рассказы, которые были продуктом его творческого воображения.
**Ключевые слова:** пророк, посланник, Божий избранник, стихотворение, художник